**1."Kitabi-Dədə Qorqud" dastanına aid olanları müəyyən edin.**

1. Məhəbbət dastanıdır.
2. Qəhrəmanlıq dastanıdır.
3. Ərəb dilində yazılıb.
4. Türk dilində danışan xalqın abidəsidir.
5. Dünya ədəbiyyatının nadir incilərindəndir.
6. Oğuzların həyat və düşüncə tərzini əks etdirir

A) 2,4,1 B) 1,3 C) 2,5,1 D) 1,4 E) 2,4,6

**2.Bu dövlətin bayrağı kvadrat şəkilli mavi qumaşdan hazırlanır. Bayrağın ortasında 32 işıq şüasından ibarət olan günəş və onun altında da bozqır qartalı, sol tərəfdə isə milli motivlərdən ibarət şaquli bir xətt yerləşir. Günəş, milli motivlər, işıq şüaları və qartal təsvirləri qızılı rəngdədirlər. Mavi türkçülüyü ifadə edir, günəş həyat mənbəyi, qartal heyvandarlığa işarədir. Hansı dövlətin bayrağından söhbət gedir?**

A) Qazaxıstan B) Türkmənistan C) Tacikistan

D) Qırğızıstan E) Tatarıstan

**3. “Baburnamə” əsəri hansı janrda yazılmışdır?**

A) Memuar B) Ensiklopediya C) Oçerk

D) Monoqrafiya E) Leze dram

**4.Məhəmməd peyğəmbərin "Türk dilini öyrənin, onların uzun sürən hakimiyyəti vardır" kəlamı ilə başlayan bu əsərin müəllifi kimdir:**

A) Mahmud Kaşğari B) Məhtimqulu Fəraqi

C) Cəlaləddin Mənquberdi D) Nizami Gəncəvi E) Yunus Əmrə

**5. Hansı hadisə nəticəsində Boğazlar faktiki olaraq Türkiyənin daxili sularına çevrildi. Qara dənizə çıxışı olmayan ölkələrin hərbi gəmilərinə boğazlardan keçmək qadağan olundu.**

A)Beynəlxalq Montre konfransı B)Mudros barışığı C)Trabzon konfransı

D)Moskva müqaviləsi E)Ərzincan barışığı

**6. Cəlalilər hərəkatına aid deyil:**

A) Şərqi Anadoluda və Osmanlının işğalı altında olan Azərbaycan ərazilərində baş vermişdi

B) Səfəvi dövlətinə qarşı yönəlmişdi

C) Feodal özbaşınalığına və amansız istismarına qarşı yönəlmişdi

D) Üsyançı dəstələrindən birinə xalq qahramanı olan Koroğlu başçılıq edirdi

E) Şah I Abbas Osmanlı dövlətini Azərbaycandan sıxışdırıb çıxarmaq üçün onların qüvvəsindən istifadə etməyə çalışırdı

**7. "Manas" dastanında Kanıkey kimidir?**

A) İdeal qadın surətidir B) Manasın qızıdır C) Mənfi qəhrəmandır

D) Xızır peyğəmbərin ömür yoldaşıdır E) Əsəri araşdırıb

**8. Mərkəzi Asiyadan Anadoluya qədər uzanan ərazidə türk xalqları arasında məhşur və ədalət simvolu olan şəxsiyyət:**

A) Koroğlu B) Nəsrəddin Xoca C) Oğuz xaqan
D) Səlcuq bəy E) Manas Batur

**9. Orxon – Yenisey abidəsi:**

1. Slavyan xalqlarına məxsus yazılı mənbədir
2. Osmanlı imperiyasından bəhs edən yazılı mənbədir
3.Türk xalqlarına məxsus yazılı mənbədir
4. Sasanilərin ərəblər tərəfindən işğalı dövrünə aiddir
5. "Kül tiqin" Kitabənin həcmi bütünlüklə 71 abidə sətrinə bərabərdir.
6. Bu abidənin adı ilk dəfə XII əsr tarixçisi Ələddin Ata Məlikin "Cüveynitarixi-cahangüşə" əsərində çəkilir.

A) 2.3.5 B)3.5.6 C) 2.5.6 D) 5.6 E) 3.6

**10. Ulu Öndər Heydər Əliyevin birinci prezidentliyi dövründə (1993-1998) türk dünyasında baş vermiş tarixi hadisə**

A) "Ortaq türk tarixi" dərsliyinin hazırlanmağa başlanması
B) "Ortaq türk tarixi" fənninin ümumtəhsil məktəblərində tədrisi haqqında qərar qəbul edilməsi
C) Beynəlxalq Türk Akademiyasının yaradılması
D) Dərsliklərin orta təhsil üzrə dövlət standartlarına uyğun yazılması
E) "Ortaq türk tarixi" fənni haqqında qərarın 2014-cü il zirvə görüşündə təsdiq edilməsi

**11."Qafqazın sənət məbədi", "Şərqin konservatoriyası" adlandırılan bu şəhər təkcə təbii gözəlliyi ilə deyil, həm də əsl _______olması ilə də seçilirdi.**

A)Mədəniyyət mərkəzi B)Şərqin qapısı
C)Qafqazın gözü D)Kiçik Venesiya E)Qərbin musiqi beşiyi

**12. Xronoloji ardıcıllığı tapın:**

1. Malazgird döyüşünün baş verməsi 2. Səlcuqların Bağdada daxil olması
3. Ankara döyüşü 4. Dəndənəkan döyüşünün baş verməsi
5. Böyük Səlcuq dövlətinin yaranması

A) 1, 2, 3, 4, 5 B) 5, 4,2,1,3 C) 3; 4, 5, 1, 2 D) 2, 4, 5, 1, 3 E) 5,3,4,2,1

**13.Oljas Süleymanovun keçmiş SSRİ və dünyada ciddi rezonans doğuran əsəri:**

A) Az-Ya B) Dəyirmi ulduz C) Meymun ili
D) Gil kitab E) Nurlu gecələr

**14.Malazgird döyüşü nəticəsində Səlcuqların, Çaldıran döyüşü nəticəsində isə Osmanlıların nəzarətinə keçən ərazini müəyyən edin:**

A) Şərqi Anadolu B) Cənubi Qafqaz C) İranın Şərqi D) Ərəb İraqi
E) Aralıq dənizinin şərq sahilləri

**15. M.K.Atatürkün etatizm siyasəti yönəldilmişdir**:
1. Xarici kapitalın fəaliyyətini məhdudlaşdırmağa
2. Ölkədəki işğal rejimini ləğv etməyə
3. Milli burjuaziyanın mövqeyini möhkəmləndirməyə
4. Dövlətin iqtisadi, sosial və mədəni sahələrdə müdaxiləsini zəiflətməyə
A) 2.3 B) 1.3 C) 3.4 D) 1.4 E) 2.4

**16. Səbəb - nəticə əlaqəsinin düzgün verildiyi variantı tapin**:

| | **Səbəb** | **Nəticə** |
|---|---|---|
| **1** | Mudanya müqaviləsinin imzalanması | Türkiyədə sultan səltənətinin ləğv olunması |
| **2** | Mustafa Kamalın başçılıq etdiyi azadlıq hərəkatının qələbə qazanması | Lozanna konfransında Türkiyənin müstəqilliyinin və sərhədlərinin tanınması |
| **3** | Türkiyədə Xilafətin ləğvi | Ərəb dövlətləri ilə münasibətlərin pozulması |
| **4** | M.Kamalın işğalçıları ölkədən qovması | Antantanın "Şərq məsələsi"ni də həll edə bilməməsi |
| **5** | Səədabad paktının imzalanması | İkinci Dünya müharibəsi ərəfəsində Türkiyənin bitərəfliyinin əsası qoyulması |

A) 2.4.5 B) 2.3.5 C) 1.4.5 D) 1.3.4 E) 1.3.5

**17.Türksoy təşkilatına aid deyil:**

A) Təşkilatın əsası 1992-ci ilin iyununda altı türk dövlətinin mədəniyyət nazirlərinin İstanbulda keçirilən toplantısında qoyulmusdur.
B) Türk dövlətlərinin mədəniyyət nazirlərinin Daimi Surası adlanan bu təskilata 1992-ci ilin dekabrında Bakıda keçirilən toplantıda TÜRKSOY adı verilmişdir.
C) Azərbaycan və Türkiyə rəhbərliyinin siyasi iradələrinin ortaya qoyduğu fəaliyyətlər nəticəsində, Azərbaycan Respublikası beynəlxalq mədəni əməkdaslıq təskilatı olan TÜRKSOY-un yaradıcılarından biri oldu.
D) 1993-cü il iyulun 12-də Azərbaycan və türk dövlətləri təmsilçiləri səkkiz maddədən ibarət “TÜRKSOY-un strukturu və fəaliyyət prinsipləri haqqında müqavilə”ni imzaladılar.
E) TÜRKSOY –un başlıca vəsitələrindən biri siyasi inteqrasiyadır, mənəvi-humanitar inteqrasiya da mühüm istiqamətlərdən biridir.

**18. Türk dünyasının görkəmli mütəfəkkir filosofu Yusif Balasaqunlunun "Qutadqu bilik" əsəri ilə bağlı deyil:**

A) Kitabda özünə yer tapan bütün məsələlər 4 ulu və möhkəm təməl üzərində qurulur: ədalət; səadət; ağıl; qənaət və aqibət.
B) Əsərdə Gündoğdu ədalətin, Aydoldu səadətin, Öydülmüş ağlın, Odqurmuş isə aqibətin rəmzidir.
C) Əsər boyu bütün məsələlər türk adı ilə ifadə olunmuş obrazlarla əlaqəli təqdim olunur
D) Günəş formasını, işığını dəyişmədiyi kimi Gündoğdunun da ədalətli "nur və işığı" dəyişməzdir.
E) Əsərdə hökmdar və cəmiyyət, insan və dünya, insan və əbədi aləm problemləri önə çəkilərək ədalətli cəmiyyət idarəçiliyi barədə təsəvvür genişləndirilir .

**19.Türk dünyasının görkəmli yazıçısı Çingiz Aytmatovun ədəbi sahədə psixoloji portret ustası adlandırılmasının səbəbi nə idi?**

A) Əsərlərinin qəhrəmanları mənəvi cəhətdən güclü, mərhəmətli və aktiv insanlar idi.
B) Adi bir həyat hadisəsini qlobal səviyyəyə qaldırmağı, ona yüksək fikir zirvəsindən baxmağı bacarmışdır.
C) Təsvir etdiyi hadisələrin fəlsəfəsini, mahiyyətini görüb və göstərib.
D) Dövrün kəskin fəlsəfi, etik və sosial problemlərinə toxunub
E) Əsərlərində insan xarakterində həssaslığı bədii boyalarla ustalıqla vermişdir.

**20. XX əsrin 80 ci illərində Qazaxıstanda siyasi arenaya atom əleyhinə hərəkat "Neveda-Semipalatinski"nin qədəm qoyması qazax cəmiyyətinin inkişafının yeni mərhələsi demək idi. Bu hərəkata kim başçılıq edirdi?**

A) Görkəmli yazıçı Oljas Süleymenov
B) Gənc demokrat Kayrat Rıskulbekov
C) Yazıçı Çingiz Aytmatov
D) Siyasi xadim S.Kubasov
E) Birinci katib D.Kunayev

**21.Çanaqqala döyüşünə aid deyil?**

A) Osmanlı dövlətinə məxsus boğazlar strateji baxımdan Antanta dövlətləri üçün ən əlverişli şans sayılırdı.
B) Boğazları tutmaqla onların məqsədi Almaniya ilə Osmanlı Türkiyəsini bir-birindən təcrid etmək idi.
C) Məqsədlərdən biri də İstanbulu ələ keçirməklə Osmanlı Türkiyəsinin Qara dənizdə hökmranlığına birdəfəlik son qoymaq idi .
D) İstanbulu ələ keçirməyin ən real qapısı olan Çanaqqala boğazının təhlükəsizliyi hələ 1914-ci ilin avqustundan nəzarətə götürülmüşdü.
E) İngiltərə 1915-ci il yanvarın 28-də Osmanlı dövləti ilə döyüş qərarı verdi və bu qərara ABŞ-da qoşuldu.

**22. Azərbaycanda doğulan, Özbəkistana sürgün edilən və burada ad-san qazanan məşhur ədib kim olmuşdur?**

A) Maqsud Şeyxzadə B) Botu C) Abdulla Qadiri D) Usman Nasir
E ) Xalid Səid Xocayev

**23.Nizami ədəbi məktəbinin davamçısı olan özbək şairi :**

A) Əlişir Nəvai B) Əhməd Baytarsunov

C)Yusif Balasaqunlu D) Mahmud Kaşgari

E) Əhməd Yasəvi

**24. Qazax ədəbiyyatının görkəmli klassiki Abay Kunanbayevə aid olmayan variantı tapın:**

A) Qazax xalqının milli-mənəvi dəyərlərinin böyük tərənnümçüsüdür.
B) Həyatda və əsərlərində ictimai ədalətsizliklərə qarşı çıxmışdır.
C) Çoxsaylı lirik və satirik şeirlərin, bir sıra lirik-epik poemaların, maarifçi-realist şeirlərin müəllifidir
D) Poemalarında da çətin və məşəqqətli həyatın ağır səhnələri göz önünə gətirilmişdir.
E) Fiqh (hüquq), hədis elmlərini və şəriət qayda-qanunlarını öyrənmiş, qısa müddət ərzində görkəmli din alimi kimi tanınmışdır.

**25. Görkəmli qazax yazıçısı, ictimai xadimi Muxtar Auezovun zəngin yaradıcılığına aid olan variantı müəyyən edin:**

A) Sovet rejiminin təzyiqləri nəticəsində onun 1928-ci ildə qələmə aldığı “Xan Kenə” pyesi yalnız 1993-cü ildə işıq üzü görmüşdür.
B) Qazax ədəbiyyatını didaktik maarifçilik səviyyəsindən maarifçi-realist ədəbiyyat mərtəbəsinə qaldırmışdır.
C) «İsgəndər», «Maqsud» , «Əzim haqqında nağıl» poemalarının müəllifidir.
D) Hədis elmlərini və şəriət qayda-qanunlarını öyrənmiş, qısa müddət ərzində görkəmli din alimi kimi tanınmışdır.
E) Çoxillik tarixi-linqvistik araşdırmalarının məhsulu olan tarixi əsərin müəllifidir.

**26. Xronoloji ardıcıllığı müəyyən edin:**

1. Manas dastanı 2. Koroğlu dastanı

3. Divani türk kitab 4. "Kitabi-Dədə Qorqud" dastanı

A) 4.1.3.2 B) 4.1.2.3 C) 1.4.3.2 D) 1.3.4.2 E) 3.4.1.2

**27. Şuşanın tarixi memarlıq abidələrinə aiddir:**

1. M. P. Vaqifin məqbərəsi
2. Şeyx Nigari türbəsi
3. Xurşud banu Natəvanın abidəsi
4. Qarapiri ocağı
5. Pənah xanın türbəsi

A) 1,3 B)2,4 C) 3,5 D) 1,4 E) 2,3

**28. Osmanlı imperiyası və Teymurilər dövlətinin XV əsr tarixinə aid oxşar cəhəti:**

A) Mərkəzi Asiyanı fəth etmələri
B) Başqa dövləti süquta uğratmaları
C) Bizans imperiyasını asılı vəziyyətə salmaları
D) Ağqoyunlulara məğlub olmaları
E) Səfəvilərin Ərdəbil hakimliyini tabe etmələri

**29. Cədvəldəki hansı hadisələrin nömrələrinin yerini dəyişdikdə, verilmiş bütün hadisələrin düzgün xronoloji ardıcıllığını müəyyən etmək olar?**

| | |
|---|---|
| 1 | Atatürkün Ankarada yeni parlament-Türkiyə Böyük Millət Məclisini yaratması |
| 2 | Azərbaycanın Dövlət gerbinin təsdiq olunması |
| 3 | Qazaxıstanın dövlət müstəqilliyinin elan etməsi |
| 4 | Xivə və Şuşa şəhərləri arasında «Qardaşlaşmış şəhərlər» haqqında müqavilə Imzalanması |

A) 2 və 4 B) 1 və 3 C) 2 və 3 D) 1 və 2 E) 1 və 4

**30.Aşağıdakı fikirlər aiddir:**

1.Türk dünyasının bəşər mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətlər arasında məşhur sufi şair və mütəfəkkir

2. 63 yaşında evinin qabağında dərin quyu qazdırır.

3. 1167-ci ildə dünyasını dəyişir.

A) Yunis Əmrə
B) Əhməd Yəsəvi
C) Hoca Nəsrəddin
D) Əlişir Nəvai
E) Məhtimqulu Fəraqi